

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 14 (23.656)

*22 yanvar 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib. Türkmənistan və Azərbaycan prezidentləri görüşdə çıxış ediblər.

Prezident Qurbanqulu Berdiməhəmmədov çıxış edərək bildirib ki, imzalanacaq sənəd enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, iki nəhəng enerji dövlətinin çox zəngin birgə potensialının üzə çıxarılmasına, faydalı və beynəlxalq tərəfdaşlığın inkişafı üçün ən əlverişli şərait yaradılmasına yönəlib.

Prezident İlham Əliyev çıxışında imzalanan sənədi tarixi sənəd adlandıraraq qeyd edib ki, bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq.

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.



## “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsin yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradılsın.

2. “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyinin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

3. “Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının tərkibi” təsdiq edilsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 yanvar 2021-ci il*

## “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” nişanı ilə təltif haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə Hacıyev İsmayıl Muxtar oğlu **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 yanvar 2021-ci il*

## F.Q.Quliyevanın Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fizzə Qulu qızı Quliyeva Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 yanvar 2021-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyinin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi (bundan sonra – Agentlik) muxtar respublikada medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin (bundan sonra – media subyektləri), habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Nizamnaməni, digər normativ-hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.0. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. muxtar respublikada müvafiq sahənin inkişafını təmin etmək;

2.0.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.3. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.4. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ-hüquqi aktların və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.3. dövlət orqanları (qurumları) ilə media subyektləri arasında əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə şərait yaratmaq, qarşılıqlı etimadın artırılması ilə əlaqədar tədbirlər görmək;

3.1.4. jurnalistlərin sosial müdafiəsinə yönəldilmiş tədbirlər həyata keçirmək;

3.1.5. medianın inkişafına maliyyə təminatı yaratmaq məqsədilə tədbirlər görmək;

3.1.6. media sahəsində mütəxəssislərin hazırlanması və əlavə təhsilinin təşkili, eləcə də jurnalist məsuliyyətinin artırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirmək, peşə kursları təşkil etmək;

3.1.7. media subyektlərinin xarici media subyektləri ilə əməkdaşlıq etməsi, qarşılıqlı əlaqələrin formalaşdırılması və beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində tədbirlər həyata keçirmək;

3.1.8. əhalinin maarifləndirilməsinə və ictimai normalara uyğun davranış qaydalarının formalaşdırılmasına, ictimaiyyətin diqqətinin cəmiyyətdəki aktual məsələlərə cəlb edilməsinə yönəlmiş proqramları və materialları sifariş vermək və mediada yayımlanmasını təmin etmək;

3.1.9. audiovizual və çap məhsullarının istehsalı və yayımı üzrə dövlət sifarişçisi kimi çıxış etmək, bu məqsədlə müsabiqələr keçirmək;

3.1.10. dövlət siyasətinin mediada ədalətli, balanslı, obyektiv, qərəzsiz işıqlandırılmasına, jurnalistlərin peşəkarlığının artırılmasına, media subyektlərində peşə etikası (etik davranış) qaydalarına riayət edilməsinə, mediada müasir informasiya-kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.11. media subyektlərinin inkişafına, iqtisadi müstəqilliyinin gücləndirilməsinə, fəaliyyətinin təkmilləşdirilməsinə yönəldilən, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsini təşkil etmək;

3.1.12. Agentlik tərəfindən maliyyələşdirilən layihələrin həyata keçirilməsi ilə əlaqədar media subyektlərinin və jurnalistlərin hesabatlarını nəzərdən keçirmək və qiymətləndirmə aparmaq;

3.1.13. media subyektlərinin fəaliyyətinə mane olan problemlərin həllinə dair təklifləri dövlət və yerli özünüidarəetmə orqanlarına təqdim etmək;

3.1.14. media subyektlərinin fəaliyyəti ilə bağlı təhlillər aparmaq, ictimai rəyin öyrənilməsini təşkil etmək;

3.1.15. çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərmək;

3.1.16. çap mediası və onlayn mediada yayımlanan informasiya və digər materiallar qanunla nəzərdə tutulan tələblərə cavab vermədikdə, inzibati xəta əlamətləri aşkar etdikdə, qanunvericiliyə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.17. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.18. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri qanunvericiliyə uyğun olaraq təşkil etmək;

3.1.19. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə qanunvericiliyə uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək, kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ-hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

3.1.20. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini, bu informasiyanın daim yenilənməsini və informasiya təhlükəsizliyini təmin etmək;

3.1.21. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə

*Ardı 2-ci səhifədə*

olunmasını təmin etmək;

3.1.22. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.23. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

3.1.24. qabaqcıl təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.25. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə fəaliyyət göstərən ölkə və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, təcrübə mübadiləsi aparmaq;

3.2.2. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.3. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.4. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.6. media nümayəndələrini dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.7. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.8. media sahəsində peşə (etik) davranış qaydalarına riayət edilməsi üzrə araşdırmalar aparmaq, bu istiqamətdə tədbirlər keçirmək və tövsiyələr hazırlamaq;

3.2.9. Agentliyin maliyyələşdirdiyi layihələr üzrə müqavilə şərtlərini pozan media subyektlərini belə layihələrdə iştirakdan məhrum etmək;

3.2.10. qanunvericiliyə uyğun olaraq sosial reklamlar sifariş vermək;

3.2.11. media sahəsi üzrə elektron informasiya bankını formalaşdırmaq;

3.2.12. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Agentliyin idarə olunması**

4.1. Agentliyin idarəetmə orqanı Müşahidə Şurasıdır.

4.2. Agentliyin Müşahidə Şurası (bundan sonra – Şura) Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.3. Şura Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 2 (iki) üzvdən ibarətdir.

4.4. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.5. Şura qərar qəbul etməkdə müstəqildir.

4.6. Şuranın vəzifələri aşağıdakılardır:

4.6.1. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Agentliyin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.6.2. Agentliyin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək, icrasına nəzarət etmək;

4.6.3. Agentliyin fəaliyyətinə nəzarət etmək;

4.6.4. Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək, büdcəsinin icrasına nəzarət etmək;

4.6.5. Şura üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.6.6. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.6.7. bu Nizamnamənin 3.1.21-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.6.8. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.7. Şuranın sədri ildə azı bir dəfə Şuranın iclasını çağırır və iclaslara sədrlik edir. Şuranın iclasında qərarlar sədrin və hər üzvün bir səsi olmaqla sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

4.8. Şuranın üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.9. Şuranın iclasının nəticəsi Şura üzvlərinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir.

4.10. Şuranın sədri:

4.10.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik və onu təmsil edir;

4.10.2. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan əmrlər verir;

4.10.3. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.10.4. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasını təmin edir;

4.10.5. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.6. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.7. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu həyata keçirir;

4.10.8. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclasları çağırır və iclaslara sədrlik edir;

4.10.9. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.10.10. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.11. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.11. Şuranın üzvləri:

4.11.1. Şuranın səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.11.2. Şuranın iclasının gündəliyi və baxılması nəzərdə tutulan materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.11.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxmaq barədə təklif verirlər;

4.11.5. Şuranın qərarları, iclas protokolları və digər sənədlərlə tanış olurlar.

4.12. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, qanunvericiliklə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Agentliyin əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin əmlakı təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.2. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarəti bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Agentliyin idarəetmə orqanı həyata keçirir.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edilir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

**8. Agentliyin ləğvi və yenidən təşkili**

Agentliyin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir.

## Akademik İsmayıl Hacıyevin 70 illik yubileyi qeyd olunub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Sədri cənab Vasif Talıbovun akademik İsmayıl Hacıyevin 70 illik yubileyi münasibətilə təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq yanvarın 21-də AMEA Naxçıvan Bölməsində "Akademik İsmayıl Hacıyev – 70" mövzusunda yubiley tədbiri keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri, Bilik Fondunun sədr müavini Surə Seyid çıxış edərək bildirib ki, İsmayıl Hacıyev Naxçıvanda yaşayıb-yaradan alimlər içərisində öz elmi məktəbini yarada bilib. Elmi rəhbərliyi ilə 9 elmlər doktoru və 20 fəlsəfə doktoru hazırlanıb. Rəhbərlik etdiyi dissertasiya şurasında 120-dək iddiaçı dissertasiya müdafiə edərək elmi dərəcələr alıb. O, müxtəlif illərdə Rusiya, Türkiyə, İran İslam Respublikası, İngiltərə, Polşa, Misir Ərəb Respublikası, Çexiya, Cənubi Koreya, Tunis, İtaliya və digər ölkələrdə keçirilən elmi tədbirlərdə iştirak edib, əsərləri müxtəlif dillərdə çap olunub.

Qeyd edilib ki, akademik İsmayıl Hacıyevin elmi fəaliyyətində tarixşünaslıq elmini, Vətən tarixi, eləcə də Naxçıvanşünaslığı özünə elmi istiqamət kimi seçməsi tədqiqatçı-alim kimi yetişməyində əsas rol oynayıb. Bundan başqa, o, Azərbaycan ədəbiyyatı, toponimika, iqtisadiyyat, arxeologiya, etnoqrafiya, sənətşünaslıq kimi sahələrdə də axtarışlar aparıb, məqalələr nəşr etdirib. İsmayıl Hacıyevin Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan haqqındakı tədqiqatları, ilkin şəhər mədəniyyətinin yaranması və formalaşması haqqındakı fikir və mülahizələri sivilizasiyaların tarixinə həsr edilmiş qiymətli elmi mənbələrdir. Dünyanın bir sıra ölkələrində keçirilən 60-dan artıq simpozium və konfransların iştirakçısı olan İsmayıl Hacıyev həm də nüfuzlu elm qurumlarının və xarici jurnalların redaksiya heyətinin üzvüdür. 2001-ci ildə ABŞ-ın Bioqrafiya İnstitutu tərəfindən "İlin adamı" adına layiq görülən, 2002-ci ildə Nyu-York Elmlər Akademiyasına, 2006-cı ildə "Dialoq Avrasiya Platforması"na və "Dialoq Avrasiya" jurnalının redaksiya heyətinə üzv seçilən akademik İsmayıl Hacıyev 2010-cu ildə ABŞ Bioqrafiya İnstitutunun Qızıl Medalı ilə təltif olunub. Akademik İsmayıl Hacıyevin elmi və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, çoxcəhətli və səmərəli fəaliyyətinə görə ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb, "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub. 2011-ci ildə akademik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri fərmanına layiq görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 21 yanvar tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında elm sahəsində səmərəli fəaliyyətinə görə akademik İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilib.

Konfransa onlayn şəkildə qoşulan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli görkəmli alim İsmayıl Hacıyevin 70 illik yubileyi münasibətilə Tədbirlər Planının təsdiq olunmasını, ümumilikdə, muxtar respublikada elm sahəsinə, onun gələcək perspektiv inkişafına verilən yüksək qiymət olduğunu vurğulayıb. Qeyd edib ki, akademikin elmi axtarışları, bu sahədə əldə etdiyi zəngin tədqiqatlarla yanaşı, pedaqoji fəaliyyəti də təqdirəlayiq və çoxcəhətlidir. Elmə, təhsilə böyük sevgisi, zəhmətsevərlik, tarixi keçmişimizi öyrənmək həvəsi, qazandığı zəngin təcrübəsi İsmayıl Hacıyevin Naxçıvan Dövlət Universitetində müəllim, baş müəllim, dosent, dekan müavini, dekan, elmi işlər üzrə prorektor və tədris işləri üzrə prorektor vəzifələrində uğurla çalışmasına zəmin yaradıb. Görkəmli alimin Naxçıvan Dövlət Universitetində müəllim kimi fəaliyyət göstərməsi, Azərbaycanın tarixi coğrafiyası, XVIII-XX əsrlər Azərbaycan tarixi fənlərinin tədrisini aparması, hazırladığı bir sıra dərs və tədris vəsaitləri onun uğurlu pedaqoji fəaliyyətinin göstəricilərdir.

Akademik İsmayıl Hacıyevin elmi fəaliyyətini xarakterizə etdikdə aydın olur ki, o, hər şeydən əvvəl, Azərbaycan tarixinin müxtəlif problemləri ilə əlaqədar uğurlu və ciddi tədqiqatlar aparan zəhmətkeş alimdir. Görkəmli alim ayrı-ayrı dövrlərdə apardığı tədqiqatlarda Azərbaycan tarixinin ən müxtəlif problemləri ilə məşğul olub, bir sıra məsələlərin ilk tədqiqatçısı kimi tariximizə elmi yeniliklər gətirib, yorulmaz, gərgin əməyi sayəsində arxivlərdən əldə etdiyi dəyərli sənədlər əsasında mübahisəli və qaranlıq məsələləri aydınlaşdırıb, özünəxas təhlil süzgəcindən keçirib, müqayisələr apararaq nəticələrə varmağı bacarıb. 1999-cu ildə uğurla müdafiə etdiyi doktorluq dissertasiyasını Naxçıvan Muxtar Respublikasının Azərbaycanın milli dövlətçilik tarixində yeri məsələsinə həsr edən İsmayıl Hacıyev mövzu üzərində araşdırmalarını sonrakı illərdə də uğurla davam etdirib, tədqiqatlarının nəticəsi olaraq 2018-ci ildə "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" adlı mükəmməl monoqrafiya ərsəyə gətirib. Elmi ictimaiyyət və geniş oxucu auditoriyası tərəfindən böyük rəğbətlə qarşılanan əsər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının mükafatına layiq görülüb.

AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli qeyd edib ki, Azərbaycançılıq ideologiyasının təbliği, ictimai və humanitar elmlərin, o cümlədən tarixşünaslıq elminin, ictimai fikrin, Naxçıvanşünaslıq elminin, müasir Azərbaycan cəmiyyətinin inkişafına şərəf və məsuliyyətlə xidmət edən İsmayıl Hacıyevin elmi fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin həyatı və fəaliyyətinin, nəzəri irsinin tədqiqi mühüm mərhələ təşkil edir. Onun müxtəlif vaxtlarda nəşr etdirdiyi monoqrafiyaları və çoxsaylı məqalələri bu barədə zəngin baza xarakteri daşıyan sanballı əsərlərdir ki, bu tədqiqat işləri bir növ görkəmli alimin milli dövlətçilik tariximizin dərindən araşdırılaraq öyrənilməsi yolunda atdığı mütərəqqi addımların davamı kimi də xüsusi dəyərləndirilir və çox qiymətli mənbə rolunu oynayır.

Konfransda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev "Akademik İsmayıl Hacıyev görkəmli elm təşkilatçısı kimi", "Naxçıvan" Universitetinin rektoru Nurlana Əliyeva "Naxçıvan elm məktəbinin akademik nümayəndəsi", Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov "Akademik İsmayıl Hacıyev tarixçi alim və pedaqoq kimi", AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Naxçıvanşünaslığın tədqiqi və təbliğində İsmayıl Hacıyevin rolu" mövzularında çıxışlar ediblər.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən elm siyasətindən, bu sahədə əldə olunan uğurlardan, elmi nailiyyətlərdən geniş bəhs edib, yubileyinin keçirilməsinə, əməyinə verilən yüksək qiymətə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

**"Şərq qapısı"**

## Görkəmli alimə həsr olunan onlayn açıq dərs

*AMEA Naxçıvan Bölməsi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında görkəmli alim, akademik İsmayıl Hacıyevin 70 illik yubileyi münasibətilə "Akademik İsmayıl Hacıyev – 70" mövzusunda açıq dərs keçilib.*

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli əvvəlcə akademik İsmayıl Hacıyevin 70 illik ömür yolu haqqında şagirdlərə məlumat verib. Bildirilib ki, ulu öndər Heydər Əliyev irsinin öyrənilməsində, Azərbaycanın ayrılmaz tərkib hissəsi Naxçıvanın dövlətçilik ənənələrinin araşdırılmasında, müstəqilliyimizin bərpasından sonra Naxçıvan Muxtar Respublikasında əldə edilmiş irəliləyişlərin elmi nöqteyi-nəzərdən təhlil edilməsində akademik İsmayıl Hacıyevin böyük xidmətləri olmuşdur.

Fəxrəddin Səfərli alimin fəaliyyətinin müxtəlif dövrləri haqqında məlumat verərək şagirdləri onun ərsəyə gətirdiyi elmi əsərlərlə tanış edib. Açıq dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbində izlənib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

***Azərbaycan təsviri sənət tarixinə adı qızıl hərflərlə yazılan, mədəniyyət tariximizdə böyük ustad kimi tanınan, "Azərbaycan rəssamlığının səməndər quşu" adlanan Bəhruz Kəngərli 1892-ci ilin yanvar ayının 22-də Naxçıvan şəhərində dünyaya göz açıb. 30 illik ömrə sığdırdığı məhsuldar yaradıcılığı ilə incəsənətimizə dəyərli incilər bəxş edib. O, realist portret və mənzərə janrlarının əsasını qoymaqla yanaşı, teatr rəssamlığı, qrafika və digər üslublarda yaratdığı əsərləri ilə də milli rəssamlığın inkişafında özünəməxsus rol oynayıb.***

## Realizmin ecazkar zirvəsi və ya Əcəmi yurduna Bəhruz sevgisini hopduran 7 illik yaradıcılıq fəaliyyəti

Rəssamın həyat yoluna nəzər saldıqda görürük ki, onun ömür payına ağrılı-acılı cəmisi 30 il düşüb, onun da çox hissəsini səsə həsrətlə yaşayıb. Bəhruz hələ uşaq yaşlarında eşitmə qabiliyyətini itirib və təhsil aldığı rus-tatar məktəbindən uzaqlaşmağa məcbur olub. Bundan sonra o, təhsilini evlərində atası Şirəli bəyin köməyi ilə alıb. Həmin çətin illərdə kiçik yaşlarından həvəs göstərdiyi rəssamlıq onun sevimli məşğuliyyətinə çevrilib. Bir müddət keçəndən sonra Bəhruz qəti olaraq rəssamlıq







təhsili almaq qərarına gəlib və atasından onu Tiflisə oxumağa göndərməsini xahiş edib. Şirəli bəy oğlunun eşitmədiyini nəzərə alaraq, həm də evdən uzaq bir yerdə rəssamlıq məktəbində oxuya biləcəyinə inanmadığından tərəddüd edib. Lakin Bəhruzun özünə inamı və rəssamlığa olan həvəsi Şirəli bəyi oğlunun oxumasına razılıq verməyə məcbur edib. Beləliklə, 1910-cu ildə 18 yaşlı Bəhruz Tiflisə yollanıb və o vaxtlar Zaqafqaziyadakı yeganə rəssamlıq məktəbinə qəbul olub. 1915-ci ilə kimi burada dövrünün tanınmış fırça ustalarından sənətin sirlərini öyrənib, təhsilini başa vurduqdan sonra doğma Naxçıvana qayıdıb. Əziyyətli, keşməkeşli, ancaq bir o qədər də səmərəli ömür yaşayan rəssam özünün çoxşaxəli fəaliyyəti ilə əsl ziyalılıq nümunəsi sərgiləyib. Onun yaratdığı əsərlər milli təsviri sənətimizə yeni bədii ruh bəxş edən qiymətli irsdir.

Rəssamın yeddi ili əhatə edən yaradıcılığında 2 minə yaxın rəngkarlıq, qrafika və teatr-dekorasiya nümunələri yaratdığı məlum olsa da, bizim dövrə onların 500-ə qədəri gəlib çatıb. Onun təcrübəli müəllimlərindən əxz etdiyi realist-gerçəkçi sənət vərdişlərinin əksini özündə yaşadan bu ecazkar sənətkarlıq nümunələri həm də realizmin bədii ifadə potensialının nəhayətsizliyini təsdiqləyir.

Bəhruz Kəngərlinin yaradıcılığı janr etibarilə rəngarəng olub. Bu zənginlikdə mənzərənin say etibarilə çoxluq təşkil etməsi kifayət qədər görünəndir. Onların arasında Naxçıvan təbiətini vəsf edən əsərlərlə yanaşı, yaşanan tarixi hadisələrin gələcək nəsillərə çatdırılmasına xidmət edən nümunələr də az deyil. Eyni zamanda onun yaradıcılığı janr əlvanlığı ilə seçilir. Bizə yadigar qoyub getdiyi bədii irsdə portret və mənzərələr çoxluq təşkil edir. Hələ tələbə ikən Naxçıvanda 1914-cü ildə ilk fərdi sərgisini təşkil edən rəssam insanların məhz həmin janrlara olan marağını hiss edir. Bunu nəzərə alan rəssamın təhsildən sonra əhali arasında yaydığı "Naxçıvan yadigarı" albomunda da mənzərələr və portretlər əsas yer tutub.

Bütün yaradıcılığı boyu Əcəmi yurdunun dini ocaqlarını, inanc məkanlarını təsvir etməkdən yorulmayan Bəhruz bəyin onlara bədii münasibətindən də tamaşaçısını görüklərindən duyğulandırmaq istəyi mövcuddur. Rəssamın Naxçıvanın müxtəlif məscidlərini, Əshabi-kəhf ziyarətgahını, Nuhun məzarını əks etdirən lövhələri bu qəbildəndir. Təkcə Nuhun məzarına ayrıca beş əsər həsr edib. Bundan əlavə, Bəhruz Kəngərlinin bizim dövrə gəlib çatmış "Naxçıvan yadigarı" albomundakı rəsmlərdən biri də Nuhun qəbri ilə bağlıdır. Rəssamın əsərlərində həm də Naxçıvan təbiətinin təkrarsız qovuşmuş onlarla bənzərsiz guşəsi fırçanın və yeddi rəngin gücü ilə ərsəyə gətirilib. Bu nümunələrdə Bəhruz Kəngərlinin duyum qabiliyyəti ilk anda diqqəti cəlb edir. Lakin zamanın axarında həmin şəhər və təbiət mənzərələrinin bir çoxu yox olub. Odur ki, bu gün Əcəmi yurdu nə qədər yeniləşsə də, onun vaxtilə Bəhruz bəyin ecazkar fırçası ilə kətan və kağız üzərində əbədiləşən motivləri tarixi tutuma bələndiyindən duyulası maraq oyatmaqdadır.

Gənc rəssam zamanında təkbaşına bütöv bir yaradıcı nəslin görə biləcəyi işləri görə bilib. Onun özünün fıravanlıqdan uzaq bir durumda yaratdığı "Qaçqınlar" qrafik silsiləsi bu gün vətəndaş mövqeyinin təzahürü kimi qəbul olunur və dəyərləndirilir. Ona ayrılmış 30 illik təzadlarla dolu ömür payının cəmisi 7 ilini müstəqil yaradıcılığa həsr etməyə imkan tapan Bəhruz Kəngərli erməni təcavüzündən bəhs edən "Qaçqınlar"ı ilə yurdun ən çətin anlarında 1918-1920-ci illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz dədə-baba torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirən azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlər yaradıb. Onun "Qaçqınlar" silsiləsini otuza qədər ("Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Qaçqın Gümşün", "Ayaqyalın qaçqın oğlan" və sair ) sulu boya ilə çəkilmiş əsər təşkil edir.

Xalqımıza qarşı törədilən erməni təcavüzünə dəlil axtarılan bir vaxtda rəssamın şah əsəri olan, böyük əhəmiyyətə malik məşhur "Qaçqınlar"ı ilə yanaşı, özündə tarixiliyi yaşadan Naxçıvanın rəmzinə çevrilmiş Möminə xatın türbəsinə həsr etdiyi əsərlər də xüsusi yer tutur. Bəhruz Kəngərlinin "Mənzərə", "Məqbərə", "Atabəylər türbəsi"və sair əsərləri bu qəbildəndir. Onun gözoxşayan təbiət motivləri ilə yanaşı, Naxçıvandakı xarabalıqları – viranəlikləri əks etdirən əsərləri – "Tərk edilmiş ev", "Naxçıvan viranəlikləri", "Naxçıvanda xarabalıqlar", "Eylabat kəndində dağıdılmış darvaza" da mühüm əhəmiyyət kəsb edir. Belə ki, rəssam tərəfindən tarixin bədii yaddaşına köçürülənlər – dağıntılar bu tikililərin zamanın sərt sınaqlarından çıxmamasının yox, qədim şəhərin daşnak hərbi dəstələri tərəfindən törədilən vəhşiliklərin izləridir. Odur ki, Bəhruz Kəngərli, əslində, tarixi əhəmiyyətli bir iş görməklə, yerli əhali tərəfindən yaşanan ağır anların "yaralı" daşlarda hifz olunan izlərini gələcək nəsillərə ötürə bilib. Onun vətənpərvərlik duyğularına bələnmiş bütün əsərləri, o cümlədən də mənzərələri bədii-tarixi əhəmiyyətlidir.

Rəssamın yaradıcılığında teatr-dekorasiya sənəti ilə bağlı gördüyü işlər də xüsusi yer tutur. Azərbaycanda bu sənətin davamlı şəkildə təşəkkülü səhnə tərtibatı sahəsində də istedadını sərgiləyən Bəhruz Kəngərlinin adı ilə bağlıdır. 1912-ci ildən etibarən Naxçıvan teatrında rəssam kimi fəaliyyətə başlayan sənətkar bu sahədə böyük xidmət göstərib, tamaşalara milli koloritdə zəngin səhnə tərtibatı verib, forma və məzmun vəhdəti ilə seçilən dekorasiyalar, müxtəlif rəng çalarlarında gözəl pərdələr, tamaşaların ruhunu əks etdirən geyim eskizləri və səhnənin cazibəsini artıran pannolar hazırlayıb.

Sovet dövründə onun yaradıcılığının təbliğinə hər hansı qadağalar qoyulmasa da, kommunist rejimi Kəngərlilər nəslinin adını əməlləri ilə şöhrətləndirən zadəgan əsilli rəssamın 1947-ci ildən sonra "Bəhruz bəy" kimi təqdimatını arzuolunmaz hesab etmişdi.

Ölkəmizin müstəqillik qazanmasından sonra isə ona münasibət köklü şəkildə dəyişdi. Rəssamın doğma yurddakı məzarının abadlaşdırılması və burada memorial abidənin ucaldılması, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" 2001-ci il fevralın 15-də imzaladığı Sərəncamına əsasən Bəhruz Kəngərli Muzeyinin yaradılması və 2002-ci il iyunun 18-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə açılışının olması, Bəhruz Kəngərli adına Sərgi Salonunun istifadəyə verilməsi, 2012-ci ildə Prezident İlham Əliyevin Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalaması, 2016-cı ildə isə şəhərdə sənətkarın adını daşıyan Rəssamlar Parkının salınması və tunc heykəlinin qoyulması, haqqında albomların nəşr edilməsi də dediklərimizi təsdiqləyir. Görkəmli fırça ustasının anadan olmasının 125 illiyi münasibətilə hazırlanan, rəssamın həyat və yaradıcılığına yeni baxışı ilə fərqlənən, müəllifləri – tanınmış sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev və sənətşünas Nizami Alıyev olan əhatəli monoqrafiya da bütün ömrünü milli incəsənətimizin inkişafına həsr etmiş rəssamın xatirəsinə dərin ehtiramın ifadəsidir.

*Ömrünün otuzuncu baharında dünyasını dəyişən gənc rəssam 1922-ci ilin 7 fevralında çox sevdiyi Naxçıvanla əbədi vidalaşıb. Onun sınaqlarla zəngin olan ömür yolu ecazkar gözəlliklərinə doya bilmədiyi Əcəmi yurdundan əbədi ayrılsa da, öz zəngin fəaliyyəti ilə Naxçıvanın çoxəsrlik tarixində iz qoyaraq əsərlərini zamansızlığa, özünü isə ölməzliyə qovuşdurub.*

**Gülcamal TAHİROVA**

## Rəsm əsərlərinin təqdimat mərasimi keçirilib



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Rəsm Qalereyasında Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov və rəssam Nəsrulla Musayev tərəfindən muzeylərə hədiyyə edilmiş rəsm əsərlərinin təqdimatı keçirilib.*

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açaraq bildirib ki, muxtar respublikada incəsənətin digər sahələri kimi, rəssamlıq sənətinin də inkişafına böyük dövlət qayğısı göstərilir. Son illər muxtar diyarımızda rəsm festivallarının keçirilməsi, istedadlı gənc rəssamların rəsm əsərlərindən ibarət sərgilərinin təşkili və tanınmış rəssamların əməyinin dövlətimiz tərəfindən layiqincə qiymətləndirilməsi bunun bariz ifadəsidir.

Vurğulanıb ki, bu gün muzeylərə eksponat toplanması istiqamətində keçirilən növbəti təqdimat mərasimi təsviri incəsənətimizlə bağlıdır. Tanınmış rəssamlarımız, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov və rəssam Nəsrulla Musayev müxtəlif illərdə portret və mənzərə janrlarında yağlı boya ilə kətan üzərində yaratdıqları yazıçı Mir Cəlal Paşayevin və Ağa Məhəmməd Hadinin portretlərini, "Qarabağ Azərbaycandır!", "Əshabi-kəhf", "Əlincə vadisi", "Şahbuz mənzərəsi", "Adana dağları", "Yun darayan qadınlar", "Bizim həyət" və digər bu kimi 16 sayda rəsm əsərini muxtar respublikada fəaliyyət göstərən muzeylərə hədiyyə edirlər. Nazir hədiyyə olunan rəsm əsərlərinə görə Həmzə Sadiqova və Nəsrulla Musayevə təşəkkür edib, onlara yaradıcılıq uğurları arzulayıb.

Həmzə Sadiqovun həyat və yaradıcılıq fəaliyyətindən bəhs edən Natəvan Qədimova vurğulayıb ki, ilk dəfə 1977-ci ildə fərdi sərgisi keçirilən Həmzə Sadiqov 1980-ci ildə Moskvadakı Xalq İncəsənəti Universitetini bitirmişdir. 2004-cü ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda təşkil olunan bütün sərgilərdə iştirak edir. Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Muxtar respublikada yaşayıb fəaliyyət göstərən istedadlı rəssamlardan olan Nəsrulla Musayev 1985-ci ildə Bakı şəhərindəki Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmişdir. 2014-cü ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin, 2017-ci ildən isə Azərbaycan Rəssamlar Birliyinin üzvü olan rəssamın rəsm əsərlərində xalqımızın milli dəyərlərinin təsviri və təbliği özünəməxsus yer tutur.

Sonda Natəvan Qədimova muxtar respublikada tarix və mədəniyyətin inkişafına göstərilən diqqət və qayğıya görə mədəniyyət və incəsənət sahəsində çalışanlar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, mədəniyyətimizin inkişafına töhfə olan muzeylərimizə eksponat hədiyyə edilməsi işində iştirak edən bütün vətəndaşlara təşəkkür edib.

Sonra Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov və rəssam Nəsrulla Musayev çıxış edərək hədiyyə etdikləri rəsm əsərlərinin tarix və mədəniyyətimizin saxlanc yeri olan muzeylərdə layiqincə mühafizə olunaraq gələcək nəsillərə çatdırılacağına əminliklərini bildiriblər. Qeyd ediblər ki, bundan sonra da muzeylərlə əlaqələri davam etdirəcəklər.

Sonda hədiyyə olunmuş rəsm əsərlərinin sərgisinə və Naxçıvan Dövlət Rəsm Qalereyasının ekspozisiyasına baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Yeni monoqrafiyaların təqdimatı olub



Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında Mühasibat uçotu və maliyyə kafedrasının professoru, iqtisad elmləri doktoru Nazim Əhmədovun "Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı" və "Azərbaycanda turizmin inkişafı və onun regional problemləri" adlı monoqrafiyalarının təqdimat mərasimi keçirilib.

Təqdimatı giriş sözü ilə universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov açaraq hər iki monoqrafiyanı yüksək qiymətləndirib. Bildirilib ki, hər iki elmi əsər ali məktəb tələbələri, müəllimlər və bu sahələrlə maraqlanan hər kəs üçün qiymətli mənbə ola bilər. Monoqrafiyalarının işıq üzü görməsi münasibətilə müəllifi təbrik edən Məftun İsmayılov professora elmi fəaliyyətində uğurlar arzulayıb.

Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, iqtisad elmləri doktoru Teymur Abbasov çıxışında qeyd edib ki, "Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı" monoqrafiyasında, ilk növbədə, 5000 ildən çox yaşı olan qədim Naxçıvanın iqtisadiyyatının XX əsrin axırlarına qədərki dövrünə nəzər salınıb. Ölkəmiz ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra, xüsusilə 1995-ci ilin sonunda makroiqtisadi sabitliyin yaranması və muxtar respublikanın sürətli inkişafı geniş tədqiqat obyektinə çevrilib. Əsrdə muxtar respublika iqtisadiyyatında baş verən köklü dəyişikliklər, əldə olunan uğurlar, bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iqtisadi siyasəti zəngin statistik materiallar əsasında təhlil edilib.

Bələdiyyə və turizm kafedrasının müdiri, baş müəllim Flora Kərimova öz çıxışında bildirib ki, "Azərbaycanda turizmin inkişafı və onun regional problemləri" elmi əsərində dünyada turizmin meydana gəlməsi, inkişafı, turizm sahəsinə ümumi yanaşmalar və turizm sahəsində beynəlxalq təcrübəyə nəzər salınıb. Azərbaycanda turizmin yaranması, inkişaf tarixi, zəruriliyi, məqsədi və əsas istiqamətləri tədqiq olunub. Həmçinin monoqrafiyada muxtar respublikada turizmin inkişafının müasir vəziyyəti, turizmin inkişaf perspektivləri, bu sahədə həyata keçirilən tədbirlər, turizmdə sahibkarlığın formalaşması və dövlət tənzimlənməsindən söhbət açılıb.

Sonda müəllif göstərilən dövlət dəstəyinə görə minnətdarlığını ifadə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Ekoloji tədbirlər sağlam ətraf mühitə xidmət edir



*Muxtar respublika ərazisində mövcud ekoloji vəziyyətin qorunması, ətraf mühitin mühafizəsi, təbii resurslardan səmərəli istifadə olunması və əlverişli mühitin yaradılması məqsədilə ekoloji tədbirlər uğurla davam etdirilir.*

Ötən ay ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 8 yoxlama-reyd keçirilmiş, 3 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.

Muxtar respublikamızın təbiətinin qorunması üçün inzibati tədbirlərdən daha çox ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə Şərur rayonunun Aşağı Yaycı, Ordubad rayonunun Baş Dizə, Babək rayonunun Aşağı Buzqov, Şahbuz rayonunun Gömür, Culfa rayonunun Ərəfsə kəndləri və ətraf kəndlərin nümayəndələrinin iştirakı ilə ekoloji-hüquqi maarifləndirici tədbirlər keçirilmişdir. Ekoloji monitorinqlər də davam etdirilmiş, bu məqsədlə Naxçıvan şəhəri, Şərur, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 26-dan çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmışdır. Hesabat ayı ərzində Sədərək Rayon Su Monitorinq Laboratoriyasında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxından" hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və 104 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Hesabat ayında yaşıllaşdırma tədbirləri tinglə və toxumla əkin çərçivəsində ötən illərdə salınmış meyvə bağlarında bərpa işləri davam etdirilmiş, bataqlıqlaşmış, çəmənləşmiş və qismən şoranlaşmış ərazilərdə yemişan, həmərsin, badamça, iydə, üzüm, göyrüş, ayland toxumları ilə əkin aparılmışdır. Növbəti illərdə tingə olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə Qoşadizə və Xətai ərazisindəki tinglik sahələrində növ müxtəlifliyinə üstünlük verilməklə badam, alma, üzüm, ərik, alça, qoz, ceviz, yemişan, armud, heyva, şam, ardıc, sərv, çinar, palıd toxumlarından istifadə olunmaqla toxmacarlıq yaradılmış, 248,0 kiloqram toxumdan istifadə olunmuşdur.

Ailə təsərrüfatlarının inkişafına dair tədbirlər planına uyğun olaraq muxtar respublikada meyvə bağlarının əkilməsi ilə məşğul olan ailə təsərrüfatlarına yardımın təbliğ edilməsi məqsədilə hesabat ayı ərzində Ordubad rayonunun Baş Dizə, Naxçıvan şəhərinin Əliabad qəsəbəsində ayrı-ayrı sahibkarlarla fərdi maarifləndirici görüşlər keçirilmiş, meyvə bağlarının salınması məqsədilə onlara 1970 badam, ərik, alma, tut və sair meyvə tingləri verilmişdir. Dekabr ayı ərzində toxum bölgüsünə uyğun olaraq 392 kiloqram müxtəlif meyvə və meşə toxumları tədarük olunmuşdur. Xüsusi mühafizə olunan təbiət ərazilərində məskunlaşmış vəhşi heyvanların susuzluqdan başqa yerlərə miqrasiya etməsinin qarşısının alınması məqsədilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığının Dərəşam adlanan ərazisinə 1 su novu yerləşdirilmiş, biotexniki tədbir keçirilmiş, əraziyə 200 kiloqrama yaxın daşduz dağıdılmışdır.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul və "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli sərəncamlarından irəli gələn vəzifələrin icrası məqsədilə nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisasının IV kurs tələbələri 16 noyabrdan 30 dekabradək nazirlikdə istehsalat təcrübəsində olmuşlar. İstehsalat təcrübəsi dövründə tələbələr Sutəmizləyici qurğular kompleksində, "Naxçıvan Sement Zavodu" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərində, digər istehsal müəssisələrində olmuş, onlara yeni texnologiyalar haqqında ətraflı məlumat verilmişdir. Eyni zamanda tələbələr Geoloji Axtarış və Kəşfiyyat İdarəsində, Duzdağ Fizioterapiya Mərkəzində və Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində ekskursiyada olmuş, Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun kənarlarındakı yamaclarda toxum üsulu ilə əkin işlərində iştirak etmiş, onlara aparılan əkin işlərinin əhəmiyyəti haqqında məlumat verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Şahmat Mərkəzində "Naxçıvan şahmatçılarının oyunlarının təhlili" və "Məsələ həlli" mövzularında növbəti interaktiv dərs keçilib. Dərsi beynəlxalq dərəcəli hakim Emin Hacıyev aparıb.*

# Növbəti interaktiv dərs



Emin Hacıyev elektron şahmat proqramları, "Siciliya müdafiəsi" və "Etüdlərin həlli" haqqında ətraflı məlumat verib.

Məşğələ saat $11^{00}$-da ümumtəhsil məktəblərinin şagirdləri üçün, $12^{00}$-da ümumtəhsil məktəblərində Şahmat fənnini tədris edən müəllimlər üçün keçilib. Bununla yanaşı, saat $15^{00}$-da isə rayon şahmat məktəbləri üçün təşkil edilən interaktiv dərsdə muxtar respublika şahmatçılarının oyunları təhlil olunub. Dərs zamanı şahmatçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, interaktiv dərs muxtar respublikada 200-dən artıq təhsil müəssisəsində şagird və müəllimlər tərəfindən elektron lövhə vasitəsilə izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Məşğələ keçirilib

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı ilə"Gəmiqaya Taxıl Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində yanğın taktiki hazırlıq üzrə məşğələ keçirilib.

Məşğələ müddətində müəssisədə baş verə biləcək yanğınların qarşısının alınması və söndürülməsində könüllü yanğın komandasının rolu haqqında məlumat verilib, müəssisədə mövcud olan "ZİL 130" markalı yanğınsöndürmə avtomobilinin texniki sazlığı və şəxsi heyətin hazırlığı yoxlanılıb. Şərti olaraq baş vermiş yanğının söndürülməsi və lokallaşdırılması istiqamətində tapşırıqlar icra edilərək mövcud olan ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları praktik olaraq göstərilib.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi

### *2021-2022-ci tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Hüquqşünaslıq ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına Hüquqşünaslıq ixtisası üzrə əyani təhsil üzrə 200 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə – Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, həqiqi hərbi xidmətə yararlı, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2021-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2021-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2021-ci il yanvar ayının 25-dən mart ayının 6-dək bazar günləri istisna olmaqla, hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*- 9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (156,160,134).***

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Xüsusi həkim komissiyasında müayinə olunub "Polis Akademiyasında təhsilə yararlı" olması barədə rəyi Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsinə təqdim etməlidirlər.

Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya həkim komissiyalarından keçə bilməyən və ya qəbul imtahanlarınadək həkim komissiyasının rəyini təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.

Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı III ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 14 avqust – 14 sentyabr 2021-ci il tarixlərdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla, tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddəti kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara Hüquqşünaslıq ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Seçmə komissiyasının vaxtı barədə ətraflı məlumatlar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında, Polis Akademiyası haqqında ətraflı məlumatlar isə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin *www.mia.qov.az* və akademiyanın *www.pa.edu.az* internet saytlarında yerləşdiriləcəkdir.

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinə

### *2021-2022-ci tədris ili üçün kursant qəbuluna dair elan*

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinə əyani təhsil üzrə 30 kursantın qəbulu üçün müsabiqə elan edir. Müsabiqədə – "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin və "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"nin tələblərinə uyğun olaraq Azərbaycan dilini sərbəst bilən, tam orta təhsilli, boyu azı 170 santimetr, yaşı 30-dan çox, 20-dən az olmayan və müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2021-ci il yanvar ayının 25-dən mart ayının 6-dək bazar günləri istisna olmaqla, hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*- hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- əmək kitabçası (olanlar üçün);*

*- arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*

*- xasiyyətnamə (yaşayış və ya iş yerindən);*

*- nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- 9x12* santimetr *ölçüdə 2 ədəd, 4x6* santimetr *ölçüdə 4 ədəd fotoşəkil.*

İlkin sənədləri Orta İxtisas Polis Məktəbinə təhsilə uyğun gələn namizədlərə müvafiq formada ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunurlar.

Namizədlər Daxili İşlər Nazirliyinin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən namizədlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt namizədin komissiya sədrinə müraciəti olduqda baxılır.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı ixtisas seçimində iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 2 ildir.

Təhsil müddəti ərzində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur.

Məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası və "polis kiçik leytenantı" xüsusi rütbəsi verilir.

Seçmə komissiyalarının vaxtı və qəbulla bağlı digər məsələlər barədə ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin *www.din.nmr.az* internet saytında yerləşdiriləcəkdir.

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (156, 160, 134).***

### *İtmişdir*

Əsədov Nazim Əli oğlunun adına 1997-ci ildə verilmiş MV-004851 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 66